

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 159 (23.070)

25 avqust 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paytaxtın Xətai rayonunda salınan idman-əyləncə park kompleksində yaradılan şəraitlə tanış olublar.

İdman-əyləncə park kompleksi Bakının Xətai rayonunda Yusif Səfərov, Ələddin Quliyev və Sergey Senyuşkin küçələrini əhatə edən ərazidə salınıb.

Görülən işlərlə tanışlıq zamanı bildirilib ki, yeni park kompleksinin ümumi sahəsi 36 min 833 kvadratmetrdir. Parkın salındığı ərazidə torpaq münbitləşdirilib, yaşıllıq zolağı salınıb, onlarla ağac və dekorativ kollar əkilib, müasir işıqlandırma sistemi və müşahidə kameraları quraşdırılıb. İdman-əyləncə park kompleksində təbii daşlardan və metaldan düzəldilən heykəllər landşaftla vəhdət təşkil edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nqo Duk Manhın etimadnaməsini qəbul edib.



## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı
## *2018-ci ilin yanvar-iyul aylarında da dinamik templə davam edib*

Muxtar respublikada 2018-ci ilin yanvar-iyul aylarında 1 milyard 505 milyon 444 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4 faiz artaraq 3318 manatı ötmüşdür.

***

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Bu dövrdə sənaye üzrə 621 milyon 450 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

***

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 579 milyon 300 min 400 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,9 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 549 milyon 804 min manatı və ya 94,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

***

Bəhs olunan dövrdə 234 milyon 475 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 13 min 125 tona, süd istehsalı isə 59 min 566 tona çatmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5,4 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

***

2018-ci ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 30 milyon 62 min 200 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,8 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 24 milyon 654 min manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,2 faiz artmışdır.

***

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 30 milyon 760 min 400 manat məbləğində kreditlər verilmişdir. Bu da bir il öncəki göstəricidən 2,3 dəfə çoxdur. Verilmiş kreditlərin 3 milyon 141 min 800 manatı və yaxud 10,2 faizi qısamüddətli, 27 milyon 618 min 600 manatı və yaxud 89,8 faizi uzunmüddətli kreditlər olmuşdur.

***

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 382 növdə məhsul istehsal olunur. Bunun 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

***

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 avqust 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 75 min 401-ə çatmışdır ki, bunun da 66 min 338-i və ya 88 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-iyul aylarında açılmış 10 min 227 bank hesabının 10 min 118-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2018-ci il tarixə 1269-a çatmışdır.

***

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-iyul aylarında 249 milyon 147 min 700 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 221 milyon 145 min 500 ABŞ dolları təşkil etmiş, 193 milyon 143 min 300 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

***

2018-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 426,2 manata çatmışdır. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çoxdur.

***

1 iyul 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3526 nəfər artaraq 454 min 298 nəfər olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

***Avqustun 24-dən etibarən müəllimlərin işə qəbulu üçün elan olunmuş müsabiqənin test imtahanları başlayıb. Qeyd edək ki, muxtar respublikada müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu ilk dəfə olaraq mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilir.***

## Müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün test imtahanlarına start verilib



Məlumat üçün bildirək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün 17 iyul 2018-ci il tarixdə müsabiqə elan edilmişdir. Müsabiqəyə 165 vakant vəzifə çıxarılıb. Ən çox vakant vəzifələr Şərur rayonu (48 yer), Şahbuz rayonu (29 yer) və Ordubad rayonu (27 yer) üzrədir.

Müsabiqədə iştirak etmək üçün müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində komissiyanın internet portalı vasitəsilə elektron formada qəbul edilib. Müsabiqəyə çıxarılmış vakant vəzifələrin tutulması üçün 527 namizəd sənəd təqdim edib. Ən çox müsabiqə vəziyyəti ibtidai sinif müəllimliyi (166 müraciət), ingilis dili (84 müraciət), riyaziyyat (43 müraciət), coğrafiya (42 müraciət) və tarix (41 müraciət) ixtisasları üzrə qeydiyyata alınıb.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli 61 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"na müvafiq olaraq müəllimlərin işə qəbulu üçün elan olunmuş müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini pedaqoji ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi almış, habelə xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış muxtar respublikada yaşayan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə hər bir namizədə, ümumilikdə, 80 olmaqla, ixtisas üzrə 40, tədris metodikası və təlim strategiyalarına aid 25, informasiya və kommunikasiya texnologiyalarına aid 15 test tapşırığı təqdim edilir. Onlara test tapşırıqlarının yerinə yetirilməsi üçün 120 dəqiqə vaxt verilir və hər bir düzgün cavab bir balla qiymətləndirilir. Stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir. Həmin namizədlərdən ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunacaq.

Qeyd edək ki, test imtahanı bitdikdən dərhal sonra hər bir namizədə cavab kartı və nəticəyə dair arayış təqdim ediləcək. Nəticələr gündəlik olaraq komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdiriləcəkdir. Test imtahanları 12 sentyabr 2018-ci il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## Payız-qış mövsümündə də əhaliyə nümunəvi nəqliyyat xidməti göstəriləcək

Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən ümumi yığıncağı xidmətin rəisi Əli Hüseynəliyev açaraq məruzə edib. Bildirib ki, avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Dövlət Nəqliyyat Xidmətinin qarşısında da mühüm vəzifələr qoyulub. Verilmiş tapşırıqların icrası ilə əlaqədar ilkin olaraq ucqar dağ və sərhəd kəndlərinə işləyən marşrut avtobuslarının texniki müayinədən keçirilməsinə start verilib. Bu məqsədlə xidmətin payız-qış mövsümünə hazırlıq komissiyası bölgələrdə olub, ucqar dağ kəndlərinə işləyən nəqliyyat vasitələrinin sahibləri ilə əlaqə saxlayıb, mövcud çatışmazlıqların aradan qaldırılması üçün onlara köməklik göstərilib.



Qeyd olunub ki, avqust ayı ərzində muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinəsi keçirilib, 301 avtobus qeydiyyata alınıb. Onlardan 234-ü saz vəziyyətdə olub, 54-nə nasazlıqları aradan qaldırmaq üçün vaxt verilib, 13-ü isə əsaslı təmir üçün dayandırılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada fəaliyyət göstərən 496 taksidən 200-ü Naxçıvan şəhərində, 70-i Şərur, 60-ı Babək, 23-ü Ordubad, 60-ı Culfa, 26-sı Kəngərli, 27-si Şahbuz, 7-si Sədərək rayonlarında işləyir.

Vurğulanıb ki, avtovağzalların payız-qış mövsümünə hazırlığı diqqət mərkəzində saxlanılır, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının hərəkət qrafiki bir daha təkmilləşdirilir. Həmçinin istilik sistemlərinin yoxlanılaraq işlək vəziyyətə gətirilməsi üçün müvafiq tədbirlər görülür. Belə ki, 16-21 avqust tarixlərində Şahbuz, Culfa, Ordubad və Naxçıvan avtovağzallarında istilik sistemləri yoxlanılıb, bu sahədə olan çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirlər həyata keçirilib.

Bildirilib ki, şəhərdaxili nəqliyyatın intensiv və keyfiyyətli fəaliyyəti təmin edilməli, 2018-2019-cu illərin payız-qış mövsümünü uğurla başa vurmaq üçün bütün tədbirlər vaxtında həyata keçirilməlidir. Maşınların texniki sazlığı yoxlanılaraq nasaz hissələri dəyişdirilməli, qışda tam gücü ilə işləmələri üçün hazır vəziyyətə gətirilməlidir. Xidmətin əməkdaşları mütəmadi olaraq sərnişindaşıma ilə məşğul olan avtobusların hərəkət qrafikinə nəzarət etməli, sürücülərin geyim formasına, axşam saatlarında şəhərdaxili marşrutların işinin daha səmərəli qurulmasına, avtobuslararası intervalın gözlənilməsinə diqqəti artırmalıdırlar. Həmçinin taksi sürücülərinin aid olduğu zonada fəaliyyət göstərməsi üçün onlarla mütəmadi söhbətlər aparılmalı, geyim formasına, istifadə etdiyi avtomobilin təmizliyinə, sərnişinlərlə rəftarına, tarif qiymətlərinə ciddi nəzarət edilməlidir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Nail ƏSGƏROV**

# Aqrar sahədə görüləcək mövsümi işlər müzakirə olunub



*Culfa rayonunda kənd təsərrüfatında işlərin gedişi və payızlıq taxıl əkininə hazırlığın vəziyyəti mövzusunda müşavirə keçirilib.*

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək bildirib ki, bu gün muxtar respublikada həyata keçirilən irimiqyaslı islahatlar, imzalanan fərman və sərəncamlar, qəbul edilən qərarlar, reallaşan dövlət proqramları nəticəsində kənd təsərrüfatı sahəsində əldə olunan nailiyyətlər Culfa rayonunda da özünü bariz şəkildə göstərir.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 13 yanvar tarixli Sərəncamına uyğun olaraq hər il kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə əkin üçün hər hektara 50 manat, biçin üçün isə 40 manat həcmində yardımların verilməsi kənd təsərrüfatı məhsullarının maya dəyərini aşağı salmaqla əldə olunmuş gəlirin çoxalmasına zəmin yaradıb.

İstehsalçılara güzəştli kreditlərin verilməsi, onların zəruri texnika və avadanlıqlarla, həmçinin gübrələrlə, keyfiyyətli və məhsuldar toxum materialı ilə təmin edilməsi, bundan başqa, kənd təsərrüfatı məhsullarının birbaşa satışına kömək məqsədilə satış yarmarkalarının təşkili torpaq mülkiyyətçilərinin əkinçiliyə marağının daha da artmasına səbəb olub.

Çoxşaxəli tədbirlər nəticəsində kənd təsərrüfatına az yararlı torpaqların əkin dövriyyəsinə qatılması, əkin prosesində mütərəqqi metodlara üstünlük verilməsi, həmçinin sahələrin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məhsul istehsalını xeyli artırıb.

İcra başçısı diqqətə çatdırıb ki, rayonda kənd təsərrüfatı təyinatlı torpaqların əkinə cəlb olunması hesabına əkin sahələrinin genişləndirilməsi tədbirləri davam etdirilməli, həyata keçirilən meliorasiya tədbirləri nəticəsində əkin dövriyyəsinə daxil edilən yeni torpaq sahələrindən səmərəli istifadə olunmalıdır.

Əkinəyararlı olmayan ərazilərdə meyvə bağlarının, yaşıllıq zolaqlarının salınması həyata keçirilməlidir. Yeni salınmış meyvə bağlarına və yaşıllıq sahələrinə aqrotexniki qulluq edilməli, isti yay günlərində mövcud yaşıllıqların qorunmasına diqqət artırılmalıdır. Əkin sahələrinin suvarılması zamanı su itkisinin qarşısının alınması məqsədilə suvarma tədbirləri növbəlik əsasında aparılmalı, suyun bölgüsü və ondan səmərəli istifadə bundan sonra da diqqətdə saxlanmalıdır.

Vurğulanıb ki, ailə təsərrüfatlarının yaradılması kənd təsərrüfatı sektorunun inkişafında mühüm rola malikdir. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan torpaq mülkiyyətçilərinə hərtərəfli dövlət qayğısı göstərilir. Torpaq mülkiyyətçiləri bundan yararlanmalı, yeni ailə təsərrüfatları yaradaraq səmərəliliyə nail olmalı, kənd təsərrüfatı məhsulları istehsalını daha da artırmalı, sahibkarlıq fəaliyyətlərini genişləndirməlidirlər.

Torpaq mülkiyyətçilərinin diqqətinə çatdırılıb ki, biçindən sonra taxıl sahələrinin yandırılması yolverilməzdir. Bu həm ekoloji, həm də aqrotexniki qaydalar baxımından zərərlidir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov bildirib ki, hazırda gələn ilin məhsulu üçün əkiləcək torpaq sahələrində şum aparılır. Yüksək məhsuldarlığa nail olmaq üçün bütün aqrotexniki tədbirlər, yəni sahənin əkin üçün seçilməsindən başlamış biçinə qədər olan bütün texnoloji proseslər vaxtında və keyfiyyətlə yerinə yetirilməli, taxıl əkiləcək sahədə növbəli əkinə ciddi əməl olunmalıdır.

Qeyd olunub ki, aqrotexniki tədbirlər içərisində məhsuldarlığa ən çox təsir göstərən səpin işləridir. Belə tədbirlərdən heç biri taxılın məhsuldarlığına, onun böyümə və inkişafının gedişinə səpin müddəti qədər güclü təsir göstərə bilmir. Taxıl bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etmək üçün yerinə yetirilən kompleks aqrotexniki tədbirlər içərisində ərazinin torpaq-iqlim şəraitinə uyğun taxıl sortlarının seçilməsi, rayonlaşdırılmış səpin materiallarından istifadə edilməsi və toxumun səpin üçün düzgün hazırlanması xüsusi yer tutur. Bioloji xüsusiyyətlərinə görə torpaq-iqlim şəraitinə uyğun rayonlaşdırılmış taxıl sortları əkildikdə taxılın məhsuldarlığı xeyli artır. Bu səbəbdən rayonun torpaq-iqlim şəraitinə uyğun toxum sortlarından istifadə edilməlidir.

Torpağa üzvi və mineral gübrələrin verilməsi qaydalarından danışan nazir diqqətə çatdırıb ki, əkilmiş taxıl sahələrinə gübrələrin verilməsi qanunauyğun həyata keçirilməlidir.

Sonra təsərrüfatçı Abbas Tağıyev çıxış edib.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

***Muxtar respublikamızda meyvəçilik ənənəvi, eyni zamanda əsas kənd təsərrüfatı sahələrindən sayılır. Tərkibi xeyli miqdarda mineral maddələr, vitaminlərlə zəngin olan meyvə məhsullarının insan orqanizminə faydalarını və onun ağaclarının ətraf mühitə müsbət ekoloji, estetik təsirini nəzərə alsaq, bu sahənin nə qədər əhəmiyyətli olduğunu görərik. Bu səbəbdən meyvəçilik uzun illərdən bəri bir çox bölgələrimizdə, xüsusilə də Ordubadda insanların əsas məşğuliyyət növü olub və onların güzəranını təmin edib.***

# Muxtar diyarımızın meyvəçilik şöhrəti özünə qaytarılır



Ötən əsrin sonlarında Azərbaycanda baş verən məlum ictimai-siyasi proseslər ölkəmizin təsərrüfat sisteminə də öz mənfi təsirini göstərdi. Həmin dövrdə bağlar ictimai təsərrüfatların tabeliyində idi. Bu təşkilatların süqut etməsi bütün təsərrüfat sahələrinin dağılmasına səbəb oldu. Ölkəmiz müstəqillik əldə etdikdən sonra muxtar respublikamızın blokada şəraitində olmasına baxmayaraq, bu sahə yenidən bərpa edildi və hazırda sürətlə inkişaf etdirilməkdədir.

Meyvəçiliyin inkişafının əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynadığını nəzərə alaraq, aqrar sahə ilə bağlı qəbul olunan dövlət proqramlarında bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Muxtar respublikamızda əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz olunmasında və məşğulluğun təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən həmin proqramların davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahəyə göstərilən diqqət və qayğının ifadəsidir. Bu istiqamətdə qəbul edilən növbəti dövlət proqramının qarşıya qoyduğu vəzifələrlə bağlı muxtar respublika ərazisində yeni bağların salınması, yerli meyvə sortlarının inkişafı və yeni sortların gətirilərək əraziyə uyğunlaşdırılması istiqamətində işlər getdikcə daha geniş vüsət alır. Son illər meyvəçilikdə ağır zəhmət tələb edən işlər mexanikləşdirilib, meyvə bağları elmi prinsiplər əsasında salınıb. Köhnə bağların iri, az məhsuldar meyvə ağacları bol məhsul verən sortlar ilə əvəzlənib. Hər hektarda əkilən ağacların sayı artırılıb, xəstəlik və ziyanvericilərə qarşı mübarizə tədbirləri genişləndirilib.

Ərzaq təhlükəsizliyi baxımından əhalinin sağlam qidalanmasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə qəbul edilmiş dövlət proqramlarının müstəsna əhəmiyyətinin nəticəsidir ki, ötən dövr ərzində muxtar respublikamızda 709 hektarda yeni meyvə bağları salınıb. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən artıq həmin meyvə bağları məhsul verir. Hazırda diyarımızda 4816,5 hektar sahədə meyvə bağları mövcuddur ki, bunun da 4124,1 hektarı barverən bağlardır.

Qeyd edək ki, dövlət proqramında Naxçıvan Muxtar Respublikasının iqlim şəraitinə uyğun, yüksək məhsuldarlığa malik aborigen meyvə-tərəvəz sortlarının bərpa və tətbiq olunması üçün elmi-tədqiqat işlərinin aparılması da nəzərdə tutulub. Bu istiqamətdə nazirliyin "Araz" Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində aparılmış tədqiqatlar nəticəsində 372 meyvə sortunun genetik fondu toplanıb. Bu istiqamətdə işlər davam etdirilir.

Muxtar respublikada taxılçılıq, tərəvəzçilik, üzümçülük və digər sahələrlə yanaşı, meyvəçiliyin də inkişafı stimullaşdırılır, fermerlərə güzəştli kreditlərdən və aqrolizinq xidmətlərindən daha geniş istifadə imkanları yaradılır. Eyni zamanda ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində xüsusi əhəmiyyətə malik olan ailə-fermer təsərrüfatlarına yeni innovasiyaların tətbiqi, intensiv metodlara əsaslanan müasir təsərrüfatların yaradılmasına dövlət dəstəyi davam etdirilir.

Muxtar respublikada meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması da kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaradıb. Son illərdə diyarımızın bütün bölgələrində soyuducu anbarların istifadəyə verilməsi tədarük edilən meyvə və tərəvəz məhsullarının saxlanılmasında, həmçinin ilin bütün fəsillərində əhalinin bu məhsullara olan tələbatının ödənilməsində mühüm əhəmiyyət daşıyır. Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi isə belə deməyə əsas verir ki, muxtar respublikada meyvəçiliyin şöhrəti daha da artacaq.

**Gülcamal TAHİROVA**

# Fermer təsərrüfatlarının fəaliyyəti razılıq doğurur

***Aqrar sahənin elmi əsaslarla inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsullarının bolluğunu yaratmaq, daxili bazarda həmin məhsulların xüsusi çəkisini artırmaq məqsədilə torpaq mülkiyyətçilərinə güzəştli kreditlərin verilməsi, onların yüksək reproduksiyalı toxumlarla təchiz edilmələri həm də mütərəqqi təsərrüfat formalarının yaradılmasına stimul olub.***

Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində fermer təsərrüfatlarının fəaliyyət göstərməsi məhz sadalanan qayğıların ifadəsidir. Artıq torpaq adamı bir daha dərk edir ki, güc birlikdədir. Əgər dünənə qədər hər bir ailə başçısı ona verilmiş pay torpağında öz ailə üzvləri ilə çalışırdısa, indi bir neçə qonşu yığışaraq fermer təsərrüfatı yaradır, kollektiv əməyindən istifadə etməklə daha çox məhsul istehsalına nail olur. Bu gün Şərur rayonunda da onlarla belə təsərrüfat var. Elə götürək rayonun böyük yaşayış məntəqələrindən biri olan Çərçiboğanı. Tərkibində Babəki kəndi də olan bu inzibati ərazi dairəsində Əfsər Məmmədov, Məhəmmədəli Ramazanov, Şücəddin Seyidov, Ramin Abbasov, Məhəmməd Abbasov, Yasəf Novruzov, Şövqi İsmayılov, Yusif Məmmədov, Vasif Qədimov və başqaları müxtəlif peşə sahibləri olsalar da, hər biri ayrı-ayrı təsərrüfat sahələri üzrə fermer təsərrüfatı yaradıblar. Bəziləri əldə etdikləri qazanc hesabına təsərrüfatda işlətmək üçün özlərinə lazım olan texnikalar da alıblar. Bu texnikalardan həm özləri istifadə edir, həm də qonşu təsərrüfatlara kömək göstərirlər. Soraqlarını eşitdiyimiz təsərrüfatların fəaliyyəti ilə yaxından tanışlıq məqsədilə bu günlərdə Çərçiboğan kəndində olduq. Fermerlərin bəziləri ilə görüşdük, qayğıları ilə maraqlandıq. Hansı ilə həmsöhbət olduqsa, yaradılmış şəraitdən razılığını bildirdi.

Məhəmməd Ramazanovun 16 hektar torpaq sahəsi var. Torpağın səxavətini yaxşı bilən fermer bu sahələrdən müxtəlif məqsədlər üçün istifadə edir, ailə büdcəsini gücləndirir, iqtisadiyyatımıza töhfələrini verir. O, 8 hektar buğda əkini sahəsinə vaxtında və aqrotexniki qaydalar əsasında qulluq göstərdiyindən çəkdiyi zəhmət hədər getməyib, bol məhsul tədarük edib. Ötən təsərrüfat ilində taxıl zəmilərində orta məhsuldarlıq 33 sentner olub. Bu il məhsuldarlıq 40 sentnerə çatdırılıb. Məhəmməd Ramazanov deyir ki, tək əldən səs çıxmaz. Aydın məsələdir ki, bir ailə nə qədər böyük olsa belə, 3-4 hektar torpağı əkib-becərə bilməz. Elə olanda torpağın bir hissəsi əkilməmiş qalırdı. İndiki dövrdə torpağı istifadəsiz saxlamağı bu qiymətli sərvətə qarşı biganəlik, laqeydlik kimi də başa düşmək olardı. Ancaq bu gün rayonda bir qarış sahə belə, boş deyil. Şərur torpaqları münbitdir, məhsuldardır, ona baş əyənə borclu qalmır. Bu torpaqlarda yetişdirilən buğdanın unundan hazırlanmış çörəyin dadına-tamına, ətrinə söz ola bilməz.

Təsərrüfatda həm də heyvandarlıqla məşğul olunur. 30 baş iribuynuzlu heyvan saxlanılır. Bunun üçün 4 hektar sahədən arpa tədarük edilib, 4 hektar sahə ot üçün ayrılıb. Otlaq sahəsində üçüncü çalına başlayıblar. Sahibkar inanır ki, bu təsərrüfat ili də uğurla başa çatacaq:

– Hər il rayonda meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsi, müasir kənd təsərrüfatı texnikaları ilə təchizat, yeni un dəyirmanlarının istifadəyə verilməsi, çörəkbişirmə sexlərinin fəaliyyətə başlaması şərurluları torpağa daha sıx tellərlə bağlayıb. Kənd adamı görür ki, dövlət onun yaxşı yaşaması üçün lazım olan tədbirləri həyata keçirir. Üzləşilən çətinliklərin aradan qaldırılması diqqətdə saxlanılır. Belə olan surətdə yaxşı gün-güzəran qurmağa nə var ki? Özümüzün tələbatını ödəyir, istehsal etdiyimiz məhsulun qalanını dükan-bazara çıxarırıq.

Yasəf Novruzovun təsərrüfatında 350, Şövqi İsmayılovun təsərrüfatında 126 baş xırdabuynuzlu heyvan saxlanılır. Onlar deyirlər ki, heyvandarlıqla uzun illərdir, məşğuldurlar. İstehsal etdikləri ət, süd məhsulları dükan-bazarda özünə xeyli alıcı qüvvəsi toplayıb. Çünki ekoloji cəhətdən sağlam məhsullardır. Geniş örüş və biçənək sahələri olan təsərrüfatçılar heyvandarlıqda məsul dövr sayılan döl kampaniyasını uğurla başa vurublar. Bildirdilər ki, hazırda qış üçün yem tədarükü ilə məşğuldurlar.

Son illərdə muxtar respublikada bu sahədə həyata keçirilən tədbirlərdən razılıqla danışan heyvandarlar onu da qeyd edirlər ki, göstərilən baytarlıq xidməti bu sahə ilə məşğul olanlara dövlət qayğısının bariz ifadəsidir. Bu da kənd adamlarının bu sahəyə marağını get-gedə artırır.

Yusif Məmmədov arıçılıqla məşğuldur. Onun 126 arı ailəsi var. O deyir ki, təsərrüfat sahələrinin hamısı zəhmət tələb edir. Ancaq arıçılıq daha çox qayğıya möhtacdır. Necə deyərlər, arının gərək nazı ilə oynayasan.

Onun sözlərinə görə, yaxşı hava şəraitində bir gündə bir bal arısı 4 min çiçəyə "qonaq ola" bilir, böyük bir arı ailəsi isə 15 milyondan 40 milyona qədər çiçəkdən nektar toplayır. Orta güclü bir arı ailəsi bir il ərzində 30 kiloqram bal istehsal edir, təxminən, 10-15 kiloqram çiçək tozu toplaya bilir.

Ondan istehsal etdiyi məhsulun satışı barədə soruşuruq. Deyir ki, bu barədə heç bir çətinlikləri yoxdur. Tədarük edilən məhsulun çox hissəsi elə qapıda satılır. Ölkəmizin paytaxtı Bakı şəhərinə də göndəririk. Bu da sirr deyil ki, Bakı şəhərində Naxçıvanda yetişdirilən məhsullara yüksək dəyər verilir.

Bu yazımızda Şərur rayonunun Çərçiboğan kəndindəki fermer təsərrüfatlarının az bir qisminin fəaliyyəti barədə danışdıq. Kənddə bir daha şahid olduq ki, qayğı və zəhmət birləşəndə böyük uğurlara imza atmaq heç də çətin deyil. Onu da gördük ki, qayğı davamlıdır, torpaq mülkiyyətçiləri isə zəhmətə bağlı insanlardır.

**Muxtar MƏMMƏDOV**



Turizm

# Naxçıvana səyahət etmənin yeddi səbəbi

***Müasir insanın əsas tələbatlarından biri olan turizm səyahətləri hər il dünya üzrə 1 milyard 200 milyondan artıq turistin səfər motivini yaradır. Bu motivlər turizm ehtiyatları, rekreasiya üçün yaradılmış infrastruktur və milli qonaqpərvərlik üzrə dəyişilsə də, elə zaruri şərtlər vardır ki, bunlar, əslində, yeni dünyanın yeddi möcüzəsindən biri hesab edilən turizm səyahətlərinə yollanmağın əsas səbəblərindəndir. Hər il 450 minə yaxın turistin səfər etdiyi qədim və müasir Naxçıvan da turistlər üçün belə cazibədar xüsusiyyətlər ilə zəngindir. Praktika göstərir ki, çox zaman səfərə hazırlaşan turistlərə onları səyahətə cəlb edə biləcək belə səbəblər barədə əvvəlcədən məlumat verməkdə çox fayda var. Bəs bu səbəblər hansılardır?***

*Təhlükəsizlik* hər bir səyahət zamanı ən vacib məsələdir. Şübhəsiz, yol çantasını götürüb bilinməyənlərə doğru səfərə çıxan hər bir adamın evinə sağ-salamat qayıtması onu gözləyənlərin ən böyük arzusudur. Düzdür, turistlər səyahət müddəti boyunca onlara yad ölkədə rast gələ biləcək hər cür riskli hallardan sığortalansalar da, yaxşısı budur ki, belə hallar heç baş verməsin. Turistin əşyasını, pulunu, yaxud sənədlərini itirməsi, hansısa bir qəza halında çıxılmaz vəziyyətə düşməsi və ya sadəcə, hansısa bədniyyətli insanların xoşagəlməz hərəkətləri ilə rastlaşması dünya ölkələrinə səyahətlər zamanı tez-tez rast gəlinən hallardandır ki, bunlarla bağlı dünyanın aparıcı xəbər portallarında bu barədə çoxsaylı məlumatlara rast gəlmək olar. Amma bütün bunları eşidəndə düşünürsən ki, nəyə görə Naxçıvana səyahət edən turistlər, xüsusən əcnəbilər özlərini evlərindəki kimi hiss edirlər? Kifayət qədər həssas geostrateji mövqedə yerləşən Naxçıvanda həm yerli əhalinin, həm də turistlərin təhlükəsiz şəraitlə təmin olunması etibarlılıq baxımından, əslində, hər kəs üçün vacib amildir.

*Gözəl hava şəraiti*, xüsusən səyahət zamanı hər kəs üçün arzuolunandır. Əgər fikir versək, səyahətə yollanan, yaxud səyahətdən qayıdan hər kəs gedəcəyi yerin iqlimi və hava şəraiti ilə çox maraqlanır. Şübhəsiz, hər bir insan illər boyu yaşadığı təbii mühitə uyğunlaşdığından onun üçün uzaq yerlərdəki qeyri-adi hava şəraiti həmişə sürpriz ola bilər. Ona görə də ilin hansı fəslində olursa-olsun, Naxçıvana səyahətə gələn hər bir turist üçün bu torpağın, necə deyərlər, büllur kimi saf havasını udmaqdan gözəl rekreasiya yoxdur. Çox səyahət edənlər yaxşı bilirlər ki, bol oksigenli, quru və təmiz hava həmişə insanın yorğunluğunu çıxaran, iştahasını açan əsas təbii amillərdəndir. Belə hava isə Naxçıvanda ilboyu vardır.

*Yol* mədəniyyət, həm də uzaq səyahətin başlandığı yerdir. Xüsusən yaddaqalan səyahət üçün rahat və təhlükəsiz yollar turistlərin maraq dairəsindədir. Dünyada elə yerlər vardır ki, buradakı turlar məhz yolları görmək üçün dizayn olunur. Tarixən qədim İpək Yolu üzərində mühüm ticarət karvanlarının keçid yolu olmuş Naxçıvan öz müasir yolları ilə hətta ən inkişaf etmiş ölkələrdən gələn turistlərin də, sözün əsl mənasında, ürəyincədir. Yol-nəqliyyat hadisələrinin yox səviyyəsində, turistlərə xidmət edən sürücülərin öz işində dəqiq və vicdanlı olması Naxçıvana gələn turistləri həmişə qane edib.

*Qida* servisləri hər bir səyahət zamanı turistlərin istifadə etdiyi üç əsas xidmətdən biridir. Səyahət etdiyi regiona xas olan keyfiyyətli və ləziz yeməklər isə hər bir turistin yaddaşında həmişəlik qalır. Bu mənada, Naxçıvan mətbəxi dünyanın istənilən yerindən gəlmiş turistlərin həmişə diqqətini cəlb edir. Dəfələrlə Naxçıvandakı restoranlarda nahar və ya şam edən turistlərin avropasayağı olaraq süfrəyə təklif olunan salat çeşidlərinin hər birindən əvvəlcə azacıq dadmaq istədiklərinin, sonra isə böyük ləzzətlə hamısını yediklərinin şahidi olmuşuq. Şübhəsiz, Naxçıvan torpağının, suyunun və zəhmətkeş kəndlisinin əməyinin bəhrəsi olan ekoloji təmiz yerli ərzaq məhsullarımız peşəkar qonaqpərvərliklə turistlərə təqdim olunduqda, onlar da bu diyara ikinci dəfə sırf qastronomik turizm üçün də gəlmək istədiklərini düşünürlər.



*Naxçıvan təbiəti* çox əsrarəngizdir. Burada milyon illər əvvəl dəniz dibində yaşamış canlıların izlərindən tutmuş müasir təbabətdə geniş istifadə olunan dərman bitkilərinə, səhratipli iqlimə malik düzənliklərdən tutmuş dörd fəslin bir arada yaşandığı dağ çəmənliklərinədək hər cür təbiət gözəllikləri tapmaq mümkündür. On milyonlarla ton duz ehtiyatlarının mövcud olduğu, şoranlaşmış torpaqda bakteriyalar daxil olmaqla, heç bir canlının yaşaması mümkün olmadığı Duzdağdan cəmi 15-20 kilometr məsafədə, məsələn, Qarabağlar Asnısında qaynayan həyatı gördükdə Uca Yaradanın qüdrətinə bir daha şahidlik edir insan. Yazın şişək çağında, Ağbulağın dolaylarından enərkən açılan təbiət mənzərəsi hər gün yüzlərlə, minlərlə turistin saatlarla tamaşasına dayanmağına bəs edər. Saat demişkən, Nəhcir bulağının fontanına baxmağa gələn turistlər də bu bulağın aktivliyinə görə saatlarının düz işləyib, işləmədiyinə inanırlar. Necə deyərlər, tam təbii İsveçrə dəqiqliyi.

*Tarixi zənginlik* Naxçıvanın əsl sərvətidir. Şübhəsiz, hər turist tarixi əsərlərə meyilli deyildir. Hətta elə yaşlı turistlərlə rastlaşmaq olar ki, onların heç tam orta təhsili də yoxdur. Belə turistlər ən çox təbiətlə ünsiyyətdə olmaq, yaxud əyləncə xatirinə səyahət edib, yaxşı pul xərcləyirlər. Amma səyahət edənlərin əksəriyyəti, xüsusən elit seqmentə aid turistlərin gözündən tarixi dəyər kəsb edən, kiçicik də olsa, heç bir əsər yayınmır. Bəzən elə məqamlara rast gəlinir ki, turistlər bizim üçün ilk baxışda adi görünən bir eksponat qarşısında öz təəccübünü gizlətmir. Məsələn, Naxçıvanın simvollarından biri olan Əlincəqalaya səyahət zamanı buradakı "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində sərgilənən və VI əsrə aid olduğu hesab edilən gümüş pula baxan turistlər Naxçıvanın hələ min illər öncədən sahib olduğu iqtisadi və mədəni inkişaf səviyyəsi haqqında təsəvvür əldə edə bilirlər. Naxçıvan abidələri, qalaları, burada yaşamış dünya şöhrətli insanların fəaliyyəti, Naxçıvanın İslam mədəniyyətinə verdiyi töhfələr tarix həvəskarları olan turistlər üçün çox qiymətli cazibə elementləridir.

Və *mədəniyyət* elə bir gücə malik olan sərvətdir ki, onun vasitəsilə bütün dünyanı idarə etmək mümkündür. Naxçıvanda mövcud olan sosial-mədəni inkişaf, insanların tolerantlığı və milli qonaqpərvərlik kimi turizm baxımından çox vacib olan elementlər buraya səyahət edən yerli və əcnəbi turistlər tərəfindən çox bəyənilən, haqqında müsbət fikirlər deyilən mədəni keyfiyyətlərdəndir. Mədəniyyət bir xalqın min illər boyu yaşadıb, inkişaf etdirdiyi, tarixi təkamül nəticəsində formalaşan ən mühüm göstəricisidir. Onun vasitəsilə cəmiyyətin istənilən sahəsinə qiymət verib, eyni zamanda arzu edilən nəticələrə çatmaq mümkündür. Bu mənada, Naxçıvan Azərbaycan xalqının qədim tarixinin yaşandığı, bugünkü inkişafının əks olunduğu mühüm turizm destinasiyalarından biridir. Qayda-qanunlara hamılıqla dəqiq əməl olunduğu, insan amilinə ən yüksək diqqət göstərildiyi, hər kəsin əməyinə dəyər verildiyi bir məkanda turistlərin də özlərini yad planetdə deyil, öz evlərindəki kimi hiss etməsi onları Naxçıvana səyahət etməyə cəzb edən səbəblərdəndir.





***Naxçıvana səfər edən hər turist burada özü üçün yeni bir dünya kəşf edir. Bu dünyanın gözəllikləri isə yeddidən yetmişədək hər bir səyahətçi üçün paylaşıla biləcək qədər zəngindir. Bu, Naxçıvanın turizm cazibəsidir.***

**Əli CABBAROV**







## Gənc nəslin ekoloji təhsil və tərbiyəsi diqqət mərkəzindədir

*Günü-gündən abadlaşan, gözəlləşən muxtar respublikamızda gənc nəslin vətənpərvər böyüməsi, hərtərəfli inkişafı, ətraf mühiti dərk edərək mühafizə etməsi üçün ekoloji tərbiyənin mühüm əhəmiyyəti vardır. Hazırda böyüməkdə olan gənc nəslin ekoloji təhsil və tərbiyəsində, asudə vaxtlarının maraqlı keçməsində Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzinin rolu böyükdür. Bu məktəbdənkənar müəssisə 1970-ci ildə Gənc Təbiətçilər Stansiyası kimi fəaliyyətə başlayıb, 1991-ci ildə həmin baza əsasında Ekoloji Tərbiyə Mərkəzi yaradılıb.*

Mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün buraya üz tutduq, direktor Aynur Mustafayeva ilə həmsöhbət olduq. O bildirdi ki, təbiət haqqında bilikləri öyrənmək, ekoloji təhsil və tərbiyəni möhkəmləndirmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, istedadlı uşaqları üzə çıxarmaq işində bizim mərkəzin də üzərinə mühüm vəzifələr düşür. Burada 33 adda dərnək fəaliyyət göstərir və bu dərnəklərin işinə 7 adda kabinə nəzarət edir. Hər bir ekoloji dərnəyə şəhərimizin müxtəlif məktəblərindən şagirdlər cəlb edilib. 2017-2018-ci tədris ilində şəhər məktəblərinin 816 şagirdi ekoloji dərnəklərə üzv yazılıb.



Direktor qeyd etdi ki, dərnəklərə 42 müəllim, 2 biologiya üzrə fəlsəfə doktoru cəlb olunub. Məşğələlər şəhərimizin orta məktəblərində, eyni zamanda Qızlar Liseyində, Naxçıvan Dövlət Texniki Kollecində, Naxçıvan Qarnizonunun tam orta məktəbində keçirilir. Dərnək üzvləri ərazimizin zəngin təbii sərvətləri, flora və fauna növləri, qiymətli, şəfalı bitkiləri, torpaqları, ətraf mühiti, ekologiyası haqqında hərtərəfli biliklər əldə edirlər. Dərnək rəhbərləri məktəblilərə təbiəti sevdirir, onlarda doğma yurda məhəbbət hissi oyadır.

Aynur Mustafayeva qeyd etdi ki, cari ildə məktəblilərə "Naxçıvan Muxtar Respublikası ərazisində bitən dərman bitkiləri və onun ekologiyası", "Zooekologiyanın əsasları", "Quşlar və ətraf mühit", "Təbii sərvətlər və ətraf mühit", "Bioloji müxtəlifliyin qorunması" dərnəklərinin rəhbərləri tərəfindən interaktiv dərslər keçilib və bu dərslər, eyni zamanda 200-dən artıq məktəb tərəfindən izlənilib. Bütün bunların nəticəsində dərnək üzvlərinin məktəbdə aldıqları biliklər daha da dərinləşir, onlar müstəqil işləyir, təcrübələr aparır, herbarilər toplayır, bitkiləri təyin edir və təbiət haqqında biliklərini artırırlar.

Ötən tədris ili müddətində bir sıra məktəblərdə müxtəlif tədbirlər həyata keçirilib. Ekoloji təqvimdəki əlamətdar günlərlə bağlı bir sıra orta məktəblərdə keçirilən təmizlik və abadlıq aksiyalarında fəal iştirak edən dərnək üzvlərindən Zümrüd Babazadə, Səma Rəcəbova, Qurban İsmayılov, Dilbər Abbaslı, Nərmin Gülmalıyeva fəxri fərmanla təltif ediliblər. Yay tətili müddətində isə dərnək üzvləri ekskursiyalara gedib bitkilər, müxtəlif nadir eksponatlar, sərgi üçün materiallar toplayır, bitkilərdən herbarilər hazırlayır, müxtəlif ekoloji oyunlar, bilik yarışmaları təşkil edir, güllərə bəzək bitkilərinə qulluq edərək yay tətillərini şən və maraqlı keçirirlər.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Kino sənətinin bu növü real hadisələrin, gerçək həyatın lentə alınması əsasında yaradılır, müəyyən mövzu üzrə müxtəlif araşdırmalar nəticəsində toplanan sənədli faktları film formasında tamaşaçılara çatdırır. Dünya kinosunun əsası məhz sənədli-xronikal kadrlarla qoyulmuşdur. Sənədli kinonun əhəmiyyəti təkcə həyat hadisələrini birbaşa və müstəqil təhlil etməkdən ibarət deyildir. O, konkret faktları və hadisələri tutuşdurmaq və təhlil etmək üçün də geniş imkanlara malikdir.*

# Gerçəyin özünü yaşadan sənət – sənədli filmlər







Bu baxımdan Naxçıvan Dövlət Televiziyasının sənədli filmlər və dublyaj redaksiyasında muxtar respublikamızda doğulmuş elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin həyat və yaradıcılığından, diyarımızın hər daşında-qayasında, elində-obasında qədim tarix və adət-ənənələrimizi yaşadan ayrı-ayrı bölgələrindən, Naxçıvanın zəngin təbiətinin və bənzərsiz milli mətbəxinin özünəməxsusluğundan bəhs olunan sənədli filmlərin istehsalını bu il yaranmasının 120 illiyini qeyd etdiyimiz kino tariximizə verilən əvəzsiz töhfə hesab etmək olar. Ölkə Prezidentinin 2018-ci il 1 avqust tarixli Sərəncamı ilə kinematoqrafiya sahəsində əməyi qiymətləndirilənlər arasında Naxçıvan Muxtar Respublikası Dövlət Teleradiо və Radio Verilişləri Komitəsinin əməkdaşları Vaqif Ağalarov və Ruhiyyə Rəsulovanın adlarının olması isə Azərbaycanda kino sənətinin inkişafında həmyerlilərimizin xidmətlərini göstərir və bu, hər birimizdə qürur hissi yaradır.

Azərbaycan kinematoqrafiyasını maraqlı sənədli və televiziya filmləri ilə zənginləşdirən muxtar respublikamızda sənədli film istehsalı haqqında daha ətraflı məlumat almaq üçün Naxçıvan Dövlət Televiziyasına üz tutub, sənədli filmlər və dublyaj redaksiyasının baş redaktoru Müzəffər Əsgərovla görüşüb söhbət etdik. Qeyd edək ki, Müzəffər müəllimin də bu sahədəki yaradıcı fəaliyyəti yüksək qiymətləndirilib. O, 2014-cü ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti", 2017-ci ildə isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülüb. Onunla söhbət zamanı məlum oldu ki, həm xarici filmlərin dublyajı, həm də sənədli və televiziya filmlərinin hazırlanması ilə məşğul olan redaksiya 2003-cü ildən fəaliyyət göstərir. Son illər xüsusi diqqət və qayğı ilə əhatə olunan Naxçıvan televiziya və radiosunun maddi-texniki bazasının xeyli gücləndirilməsi, teleradionun binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi, yeni çəkiliş studiyalarının yaradılması, 2014-ci ildə çəkiliş və dublyaj işinin keyfiyyətini artırmaq üçün redaksiyamıza müasir avadanlıqların verilməsi fəaliyyətimizə müsbət təsir göstərmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı "Tədbirlər Planı"nın təsdiq edilməsi barədə 2018-ci il 6 fevral tarixli Sərəncamının icrası məqsədilə dünyanın qabaqcıl ölkələrinin istehsalı olan 163 min manat dəyərində müasir yayım və çəkiliş avadanlıqlarının alınması televiziyanın imkanlarını daha da artırıb. Ən son texnologiyaya əsaslanan, hər biri 4K keyfiyyətinə malik xüsusi sifarişlə yığılan mobil çəkiliş studiyası və çəkiliş pultu, əlaqə qurğuları, videokamera qurğuları, professional fotokamera, "GoPro" kameraları, "Osmo" hərəkətli kamera, 2 ədəd SDCAM qurğusu, "Dynacord" səs pultu, "Sony" markalı əl mikrofonları, siqnalverici qurğular, 600 metrlik HD kabel və qutuları,"Canon" fotoaparat dəsti, "Slayder" müdətli elektron qurğusu, kamera dayaqları və sair avadanlıqlar televiziyanın digər redaksiyaları kimi, bizim redaksiyanın da fəaliyyətində müsbət dönüş yaradıb. Belə ki, bu avadanlıqlar səyyar çəkilişlərin operativliyi, sənədli filmlərin hazırlanması, çəkiliş və efir keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Ötən il yanvar ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr" lə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin hər biri isə bizim iş prinsipimizə çevrilib, ortaya keyfiyyətli məhsul çıxarmağımıza stimul olub.

Müzəffər müəllim deyir ki, indiyədək redaksiyada 60-dək sənədli və televiziya filmi istehsal olunub. Bunlar arasında muxtar respublikanın ictimai-siyasi, elmi, mədəni həyatında xüsusi yeri olan Behbud ağa Şahtaxtlı, Bəhruz Kəngərli, Yusif Məmmədəliyev, Məmməd Səid Ordubadi, Məmməd Araz, Məhəmməd ağa Şahtaxtlı, Cəmşid xan Naxçıvanski, Məhəmməd Tağı Sidqi, Əziz Şərif kimi dəyərli ziyalıların həyat və fəaliyyətindən, yaradıcılığından bəhs edən "Vətən, sənə canım qurban", "Sənətin Bəhruz zirvəsi", "Elmin fəxri", "Günəş doğan yerdə", "Məndən bu dünyaya nə qaldı görən", "Ziyalı", "Sərkərdə", "Xalqın müəllimi", "Onun həyat amalı" adlı sənədli və televiziya filmləri xüsusilə seçilir. Naxçıvanın muxtariyyətində mühüm rol oynayan Moskva və Qars müqavilələrinin əhəmiyyətindən bəhs edən "Şərqin parlayan günəşi", 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilən diyarımızda islami dəyərlərə və milli-mədəni irsimizə göstərilən yüksək dövlət qayğısını tərənnüm edən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı", bu qədim diyarın Dədə Qorqudla bağlılığından bəhs edən "Dədə Qorqud və Naxçıvan", Azərbaycanda olan daş qoç heykəllərdən söhbət açan "Qoç heykəllər", Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyinə həsr olunan "Tarixin 90 ili", Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə hazırlanan "Elm və bilik məbədgahı", muxtar respublikamızın bugünkü siyasi-iqtisadi inkişafından bəhs edən "Naxçıvan doxsanlarda nə idi", diyarımızın flora və faunasından, zəngin təbiət incilərindən, burada hələ də yaşadılan köçlərdən, obalardan bəhs edən "Naxçıvan təbiəti", "Payızın melodiyası", "Naxçıvan bulaqları", "Ordubad dağları", "Batabat", "Obalar" sənədli və televiziya filmlərinin süjet xətləri isə hər daşının arxasından qədim tarix boylanan yurdumuza işıq salır, adət-ənənələrimizdən söhbət açır, filmlərdəki gözəl təbiət möcüzələri ruhları oxşayır.

Bu ilin ötən dövrü ərzində redaksiyada "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı", "Şərqin polad yolları", "Culfa dağları", "Daş küftəsi" adlı sənədli və televiziya filmləri hazırlanıb. Qeyd edək ki, yaradıcı kollektivin yaradıcı və yenilikçi fəaliyyətinin bəhrəsi və müasir texniki avadanlıqlar hesabına ərsəyə gələrək yüksəkkeyfiyyətli olması səbəbindəndir ki, bu filmlər Azərbaycan Dövlət Televiziyası, İctimai televiziya, AZƏRTAC İnformasiya Agentliyi, Türkiyə Respublikasının TRT, TRT Avaz kanalları vasitəsilə tamaşaçılara təqdim edilir. Eyni zamanda müxtəlif sosial şəbəkələrdən də həmin filmləri istənilən vaxt izləmək mümkündür. Beynəlxalq, tarixi və əlamətdar günlərlə bağlı keçirilən bütün tədbirlərin açılışında bu filmlərin nümayiş etdirilməsi isə qədim Naxçıvanımızın tarixi, mədəniyyəti, incəsənəti, ümumilikdə, dünəni və bu günü haqqında ətraflı və yaddaqalan şərh verir.

Hazırda kollektiv Azərbaycanın ilk səfiri, əslən ordubadlı olan İbrahim Əbilovun, nəğməkar şair İslam Səfərlinin həyat, fəaliyyət və yaradıcılığından bəhs edən "Naxçıvan mətbəxi" adlı sənədli televiziya filmi üzərində çalışır. Onu da vurğulamaq yerinə düşər ki, 2014-cü ildən redaksiyada xarici ölkələrin istehsalı olan 450-yə yaxın sənədli və televiziya filmi dublyaj olunaraq tamaşaçılara təqdim edilib.

"Sizcə, sənədli filmin məqsədi nədir və sənədli filmin ərsəyə gəlməsində hansı amillər şərtdir?" sualımızı Müzəffər müəllim belə cavablandırır: – Qısa desək, sənədli kino, həqiqətən, gerçəyin özünün sənətini yaradır. Sənədli film təsvir və təbiqdən ibarətdir. Burada müəllif təsviri olaraq gerçək həyatdan parçalar seçir. Həmin parçalar – görüntülər beyində "sözlərə" çevrilib yeni yaranacaq sənədli filmin ssenarisini təşkil edir. Deməli, müəllif əvvəlcədən hadisələrin axarını gözləri önündə canlandırıb onu mətnə köçürür. Filmlərə yeni ideyaların tətbiqi, texniki incəlik, səsləndirmə, montaj məsələlərinə gəlincə isə deyə bilərəm ki, bu sahədə redaksiyamızda xarici ölkələrin istehsalı olan sənədli və televiziya filmlərinin dublyajı zamanı çox yeniliklər əldə edib, bunları öz filmlərimizə də tətbiq etmişik.

Sənədli və televiziya filmləri 30, bəzənsə 45 dəqiqədən ibarət olur. "Müxtəlif həyat hadisələrinin qısa zaman kəsiyində hərtərəfli canlandırılmasına bu dəqiqələr azlıq etmirmi?" sualımızı isə Müzəffər müəllim Amerika sənədli ekran ustaları Riçard Likok və Robert Dryunun düşüncələri əsasında cavab verərək deyir ki, onlar bu məsələni belə izah edirlər: "Bizim filmlərimizdə məntiqi əsas təsvirin və səsin özündən meydana gəlir. Yəni həmin əsas təsvirdə və yazılmış səsdə gizlənir. Və əgər sənədli film yarım saat davam edir, təsviri müşayiət edən söz şərhi də yalnız iki dəqiqədən ibarətdirsə, filmimiz uğurlu sayıla bilər. Yox, müşayiət edən mətn on beş dəqiqədirsə, filmi uğursuz hesab etmək olar. Bizim məqsədimiz sözə ehtiyacı olmayan əsərlər yaratmaqdır".

Naxçıvan televiziyasının baş rejissoru, sənədli və televiziya filmlərinin əksəriyyətinin ərsəyə gəlməsində böyük zəhməti olan Fərhad Zamanbəyovun da fikirlərini dinlədik. O deyir: – Sənədli film üç ünsürün vəhdətindən yaranır: kameranın qarşısında cərəyan edən gerçəklikdən, həmin gerçəklik barədə yaradıcı kollektivin şəxsi düşüncələrindən və haqqında söhbət gedən gerçəkliyin ekranda əks olunmasından. Buna əsasən deyə bilərik ki, sənədli film kollektiv işidir. Burada hər kəs öz işinin öhdəsindən layiqincə gəldikdə, bir də ki, gözəl zövqə malik olduqda ortalığa yaxşı məhsul qoymaq mümkündür.

"Sənədli filmlərdə rolların ifa edilməsinə peşəkar aktyorlarla yanaşı, həm də qeyri-peşəkar, bu sahə ilə əlaqəsi olmayan insanların dəvət edilməsi çəkilişlərdə, yəqin ki, çətinlik yaradır" fikirlərimizə Fərhad müəllim belə aydınlıq gətirir: – Təbii ki, qeyri-peşəkar adamlarla işləmək çox çətindir. Lakin aktyorların kinoda fərdin xüsusiyyətlərini üzə çıxarması nə qədər çətindirsə, o qədər də qiymətli və diqqətəlayiq olur. Aktyorların kənardan seçilməsi tamaşaçılar tərəfindən bəyənilir, eyni zamanda filmlərdə də bir fərqlilik yaradır. Xüsusilə də muxtar respublikamızın ictimai həyatında tanınan adamların rolları ifa etməsi daha yaddaqalan olur. Məsələn, Cəlil Məmmədquluzadə obrazını şair-publisist Qafar Qəribin, Eynəli bəy Sultanovu şair, filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlunun, Bəhruz Kəngərlini rəssam Həbib Allahverdiyevin, Əziz Şərifi Naxçıvan Xalq Teatrının aktyoru Akif Əsədovun bacarıqla canlandırması tamaşaçılar tərəfindən çox maraqla qarşılanır.

Qeyd edək ki, Naxçıvan televiziyası ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin əsas yaradıcı heyəti Jurnalistika ixtisasının müəllim və tələbələrindən ibarət olan televiziyasında da sənədli filmlərin çəkilişinin məsuliyyətini çiyinlərinə götürən yaradıcı heyət formalaşıb. Bu heyət tərəfindən universitetin tanıtım filmi, "Vəhdətin dayaq nöqtəsi", "Müdriklik fəlsəfəsi", "Rənglər dünyası", "Ecazkar mavi işıq", "Vətən sığır ürəyimə", universitetin reallaşdırdığı, beynəlxalq əhəmiyyətli "Elektron Naxçıvan" layihəsindən bəhs edən "Dünyaya virtual pəncərə", "Bir ömrün simfoniyası", "Naxçıvan Dövlət Universitetinin inkişaf yolu" adlı sənədli filmlər hazırlanıb kino arxivimizə təqdim olunub.

120 illik tarixi olan kino sənətimiz çətinliklərlə qarşılaşmasına, sovet rejiminin ağır senzura şəraitinə məruz qalmasına baxmayaraq, öz sözünü deyib və zaman-zaman yeni inkişaf mərhələlərinə qədəm qoyaraq bu sənətin gücünü Azərbaycandan kənarda da göstərməkdədir. Gerçəyin özünü yaşadan sənədli filmlərimiz isə 120 illik bu salnamənin parlaq səhifələrindəndir.

**Mətanət MƏMMƏDOVA**

## Uşaqlar tibbi müayinədən keçirilib

*Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası Şahbuz rayonundakı Sələsüz kəndində uşaqları kütləvi profilaktik tibbi müayinədən keçirib.*

Pediatr, stomatoloq, ftiziatr, endokrinoloq və laborantlardan ibarət briqada kəndin həkim ambulatoriyasında 30 uşağa tibbi xidmət göstərib, aşkar edilmiş bəzi xəstələrin əlavə müayinə və müalicəsi üçün Mərkəzi Uşaq Xəstəxanasına gəlmələri məsləhət görülüb. 35 valideynlə səhiyyə maarifi işi aparılıb, uşaqların sağlamlığının qorunmasında səhiyyə müəssisələri ilə valideynlərin birgə fəaliyyətinin zəruriliyi qeyd edilib.

Xəstələrə pulsuz dərman və sarğı materialları verilib, peyvəndlərin təqvim üzrə aparılması və dispanserizasiya işinin təşkili, tibbi sənədləşmənin düzgün həyata keçirilməsi ilə əlaqədar məntəqə işçilərinə metodik köməklik göstərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Xalq yaradıcılığı ilə bağlı tədbir təşkil edilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı həyata keçirilən tədbirlər xalq yaradıcılığının inkişafında və gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır.*



Növbəti belə tədbir Sədərək Rayon Heydərabad qəsəbəsində keçirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov və Sədərək Rayon Mədəniyyət Şöbəsinin müdiri Rəşad İsmayılov tədbirdə çıxış edərək bildiriblər ki, müasir dövrdə xalq yaradıcılığının, əsrlər boyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə təbliq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Xalq yaradıcılığı günlərinin keçirilməsi milli-mədəni tariximizin, milli dəyərlərimizin yaşadılmasında böyük əhəmiyyət kəsb edir.

Sonra tamaşaçılara Sədərək Rayon Mədəniyyət Evinin dərnək üzvləri və rayon Uşaq Musiqi Məktəbinin folklor kollektivinin ifasında yallı, aşıq havaları və qədim musiqi alətlərimizdə musiqi nömrələri təqdim olunub.

**Ramiyyə ƏKBƏROVA**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 601